AZƏRBAYCAN RESPUBLİKASI
BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ
SƏRƏNCAMI

№ 16 «12» 02 2020-ci il

**Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaranmasının 8-ci ildönümü münasibəti ilə bir qrup əməkdaşın təltif edilməsi haqqında**

Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaranmasının 8-ci ildönümü münasibəti ilə və Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsinin əməkdaşlarının rayonun ictimai-siyasi həyatında fəal iştirakını nəzərə alaraq "Yerli icra hakimiyyətləri haqqında" Əsasnamənin 4.1.22-ci və 6.8-ci bəndlərini rəhbər tutaraq

qərara alıram:

1. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon İdarəsinin adları aşağıda qeyd olunan əməkdaşları Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Fəxri Fərmanı ilə təltif edilsinlər:

Həsənov Nicat Zəfər oğlu
Əhmədov Elşən Eyvaz oğlu
Abbasov Mirqasım Musa oğlu
Qurbanov Natiq İsmayıl oğlu

2. Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Nicat Allahverdiyevə və Aparatın Hüquq şöbəsinin müdiri Yunis Hüseynova tapşırılsın ki, bu sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

3. Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın ki, bu sərəncamın surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**Elxan Allahverdiyev**
**№ 20**

*ƏSLİ İLƏ DÜZDÜR:*
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti Azərbaycan Respublikası
SƏNƏDLƏR ÜÇÜN

CS CamScanner